**Qlobal İqtisadi Arasdırmalar Mərkəzi**



# Ümumi






# Məlumat
















**Bakı, Azərbaycan 2008**

## MİSSİYA

**Dünya iqtisadiyyatının**
**üstünlüklərinin Azərbaycanda**
**tətbiqinə dəstək göstərməklə**
**özəl sektorun davamlı inkişafına**
**nail olmaqdır.**

## MƏQSƏD

1. **Biznes və investisiya mühitinin sağlamlaşdırılması.**
2. **Qabaqcıl sahibkarlıq təcrübəsinin tətbiqinə nail olmaq.**
3. **Azərbaycanda beynəlxalq standartların tətbiqinə dəstək göstərilməsi.**
4. **Beynəlxalq ticarətin tənzimlənməsi sahəsində yeniliklərin Azərbaycanda tətbiqinin genişləndirilməsi.**

## FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

1. **Layihələrin hazırlanması və icrası,**
2. **Sorğu və araşdırmalar həyata keçirir.**
3. **Treninqlər, seminarlar, konfranslar, dəyirmi masalar və görüşlər təşkil edir.**
4. **Jurnallar, kitabçalar, bülletenlər və s. nəşr edir.**
5. **KİV-də verilişlərin, məqalələrin, informasiya xarakterli məlumatlar verir.**

## FƏALİYYƏT SAHƏLƏRİ

**Qlobal İqtisadi Araşdırmalar Mərkəzi öz ətrafında iqtisadiyyatın aşağıdakı sahələri üzrə təcrübəli yerli və beynəlxalq dərəcəli ekspertlər cəmləşdirmişdir:**

### 1. Kiçik və orta sahibkarlığın inkişafı:



- Kiçik və orta sahibkarlığın fəaliyyət problemlərinin öyrənilməsi
- Problemlərin həlli yollarının tapılması və bu istiqamətdə tövsiyələrin verilməsi
- Müasir bazar sisteminə uyğun olaraq biznesin təşkili üzrə maarifləndirmə işləri
- Regionlarda yoxsullun azaldılması məqsədi ilə əhalinin xırda sahibkarlıqla məşğul olmasının təşviq edilməsi



## 2. İnvestisiya mühiti və onun cəlbi məsələləri:





- İnvestisiya mühitinin səmərəliliyinin müəyyənləşdirilməsi üzrə araşdırmalar
- İnvestisiya mühitində mövcud olan problemlərin aradan qaldırılması üzrə tövsiyələrin hazırlanması
- Yeni investisiya mənbələrinin araşdırılması və cəlbi üzrə tədbirlərin həyata keçirilməsi
- İnvestisiya risklərinin araşdırılması və onların yumşaldılması yollarının araşdırılması
- Xarici və daxili investisiyaların cəlbi üzrə müəssisə, sahəvi və regional araşdırmaların aparılması

## 3. Rəqabət:






- Kiçik və orta sahibkarlıq subyektlərinə azad rəqabət prinsiplərinin və metodlarının təbliği,
- Biznes subyektlərinə haqsız rəqabətlə mübarizə qaydalarının öyrədilməsi.
- Biznesin inkişafına maneə olan inhisarçılıq hallarının təsir səviyyəsinin qiymətləndirilməsi və onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi.

## 4. Regional sosial-iqtisadi inkişaf:





- Sahibkarlığın inkişafı baxımından regionların resurs potensiallarının araşdırılması və resurslardan səmərəli istifadə qaydalarının müəyyənləşdirilməsi.
- Regionlarda kənd təsərrüfatının inkişafı problemlərinin öyrənilməsi üzrə araşdırmaların aparılması və bu problemlərin həlli yollarının müəyyənləşdirilməsi
- Regionlarda gənc sahibkarlığın inkişafı məqsədi ilə biznes kursların və treninqlərin təşkil edilməsi.
- Regionlarda əhalinin məşğulluq problemlərinin araşdırılması və bu problemlərin aradan qaldırılması üzrə tədbirlərin (ixtisas artırma kursları, peşə hazırlığı kurslarının və s.) həyata keçirilməsi.
- Əhalinin müasir bazar sisteminin qayda və prinsipləri üzrə maarifləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi

## 5. Beynəlxalq ticarət və Ümumdünya Ticarət Təşkilatı (ÜTT):

- ÜTT-yə üzvlük prosesində qanunvericilik bazası üzrə texniki dəstəyin (ekspertlər vasitəsilə) göstərilməsi
- ÜTT-nin iqtisadiyyata və sahibkarlığa təsirləri üzrə araşdırmaların aparılması və maarifləndirici tədbirlərin həyata keçirilməsi
- ÜTT-nin sazişləri üzrə treninqlərin təşkili

WORLD TRADE ORGANIZATION

## 6. Beynəlxalq Mühasibat Uçotu Sistemləri (İAS və IFRS):




- Mühasibat uçotunun beynəlxalq standartları üzrə treninqlərin təşkili
- Müəssisələrdə beynəlxalq maliyyə standartlarının tətbiqi üzrə məsləhət xidmətinin göstərilməsi
- Bu sahədə araşdırmaların aparılması və hesabatların hazırlanması

## EKSPERTLƏRİMİZ

| № | Adı və Soyadı | Fəaliyyət sahələri | Elmi dərəcə |
|---|---|---|---|
| 1 | İbrahim Məmmədzadə | İnvestisiya, özəlləşdirmə, sənaye zonaları və beynəlxalq ticarət | İqtisad elmləri doktoru |
| 2 | Niyazi Həsənov | İnvestisiya strategiyalarının hazırlanması | İqtisad elmləri doktoru |
| 3 | Novruz Quliyev | Maliyyə və büdcə | İqtisad elmləri namizədi |
| 4 | Ruslan Atakişiyev | Kiçik və orta sahibkarlıq, investisiyaların cəlb olunması, regionların sosial iqtisadi inkişafı, büdcə prosesi | İqtisad elmləri namizədi |
| 5 | Vaqif Quliyev | Mühasibat uçotu və beynəlxalq maliyyə standartları | İqtisad elmləri namizədi |
| 6 | Nazim Hacıyev | Rəqabət, beynəlxalq ticarət və ekonometriya | İqtisad elmləri namizədi |
| 7 | Elxan Mikayılov | Standartlaşdırma və İSO standartları, ÜTT, regionların sosial iqtisadi inkişafı. | Magistr |
| 8 | Firudin Məmmədov | İqtisadi siyasət, regionların sosial iqtisadi inkişafı, büdcə prosesi və sahibkarlıq. | Magistr |
| 9 | Radil Fətullayev | Mühasibat üçotunun beynəlxalq standartları | Magistr |
| 10 | Səbuhi Tanrıverdiyev | Regionların sosial-iqtisadi inkişafı | Aspirant |

## PARTNYORLAR

### Dövlət qurumları:

**Azərbaycan Respublikası**

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**

Azərbaycan Respublikası

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**

**Azərbaycan Respublikası**

**Maliyyə Nazirliyi**

Azərbaycan Republikası

**Maliyyə Nazirliyi**

**Azərbaycan Respublikası**

**İqtisadi İnkişaf Nazirliyi**

Azərbaycan Republikası

**İqtisadi İnkişaf Nazirliyi**

### Beynəlxalq təşkilatlar:

**Alman Texniki Əməkdaşlıq Cəmiyyəti**

gtz

**Beynəlxalq Büdcə Layihəsi Təşkilatı**

The International Budget Project

**Danimarka Qaçqınlar Şürası**

**BP Neft şirkəti**

bp

**Open Society Institute**

**Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzi**

CIPE

**ABS Səfirlivi**

**Dünya Bankı**

## LAYİHƏLƏR



**1.** 18-19 noyabr 2004-cü ildə QİAM Azərbaycan Dövlət İqtisad Universiteti ilə birgə **"Qloballaşma və regional iqtisadi inkişaf"** mövzusunda beynəlxalq konfrans təşkil etmişdir.



**2. "Professional İşə Hazırlıq" kursları.** 2004-cü ilin dekabr ayından 2005-ci ilin mart ayına qədər QİAM Azərbaycan Dövlət İqtisad Universitetində tələbələr üçün **"mühasibat uçotu "** kurslarını həyata keçirmişdir.

**3. "Qaçqınların sıx məskunlaşdığı rayonlarda Regionlarin Sosial-İqtisadi İnkişafi Dövlət Proqramının icrasına dəstək təşəbbüsləri konsepsiyası çərçivəsində"** QİAM 2005-ci ilin Noyabr ayında Danimarka Qaçqınlar Şurası (DQŞ) və İqtisadi İnkişaf nazirliyi (İİN) ilə birlikdə sözügedən layihənin icrasının birinci mərhələsində əhatə ediləcək **Fizuli , Xocavənd, Ağdam və Ağcabədi** rayonlarında sahibkarlar üçün zəru treninq mövzularının, infrastrukturda mövcud olan problemlərin və əhalinin məşğullu problemlərinin müəyyənləşdirilməsi ilə bağlı araşdırma aparmış və hesabat hazırlamışdır**.** Aparılan araşdırma nəticəsində adı çəkilən rayonlar üzrə layihənin prioritet sahələri daxilində görülməsi zəruri olan konkret tədbirlər planı müəyyənləşdirilmişdir.

**4. Lənkəran iqtisadi rayonunda araşdırma layihəsi.**



2005-ci ilin noyabr-dekabr aylarında QİAM Alman Texniki Əməkdaşlıq (GTZ) təşkilatının maliyyə dəstəyi və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin tərəfdaşlığı ilə Lənkəran Biznes Tədris Mərkəzinin (LBTM) açılmasının əsaslandırılması ilə bağlı tədqiqat aparmışdır. dolları təşkil etmişdir.Layihə çərçivəsində regionun Lənkəran, Masallı, Lerik, Astara rayonlarında sahibkarlar arasında sorğu keçirilərək onların fəaliyyətlərində qarşılaşdıqları problemlər öyrənilmişdir.

**5.** QİAM "Qaçqınların sıx məskunlaşdığı rayonlarda Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının icrasına dəstək təşəbbüsləri konsepsiyası çərçivəsində Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun (ACİYF) qrantı hesabına Ağcabədi rayonunda 2006-ci ilin May ayından etibarən Sahibkarlara Hüquqi Xidmət Mərkəzi açmışdır. Mərkəz vasitəsi ilə sahibkarlara pulsuz hüquqi xidmət göstərilmiş və onlar arasında hüquqi problemlərlə bağlı araşdırmalar aparılmışdır. Layihə çərçivəsində Ağcabədi Şəhəri Sahibkarlara Hüquqi Xidmət Mərkəzi (SHXM) yaradılaraq mütəmadi olaraq sahibkarlar arasında sorğuların həyata keçirilməsi təşkil edilmişdir. Sorğuların keçirilməsində əsas məqsəd sahibkarların üzləşdiyi hüquqi problemlərin müəyyənləşdirilməsi və onların həlli istiqamətində sahibkarların maarifləndirilməsi, dövlət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində təkliflərin hazırlanması və icra edilməsi, o cümlədən SHXM-nin fəaliyyətinin daha səmərəli təşkilindən ibarət olmuşdur.



**7. "Azərbaycanda beynəlxalq standartların tətbiqi sahəsində mövcud vəziyyət"-in** araşdırılması layihəsi. Qlobal İqtisadi Araşdırmalar Mərkəzi 2006-cı ilin oktyabr ayından 2007-ci ilin fevralın sonuna kimi Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi ilə bağladığı Memorandum çərçivəsində sertifikatlaşdırma və sertifikat alan firmalar arasında araşdırma aparmış və bu bazarda olan inkişaf və problemlər müəyyənləşdirmişdir. Həmin tədqiqatın təqdimat mərasimi 3 Mart 2007-ci il tarixində Azersun Holdinqin maliyyə dəstəyi ilə şirkətin mədəniyyət sarayında olmuşdur.



**8.** QİAM "4-5 Aprel 2007-ci il tarixində Azersun Holding və AzEvrotel şirkətlərinin maliyyə dəstəyi ilə **"Beynəlxalq ticarət , standartlar və ÜTT: mövcud vəziyyət , problemlər və perspektivlər"** mövzusunda beynəlxalq konfrans təşkil etmişdir.



**9.** Qlobal İqtisadi Araşdırmalar Mərkəzi 22 May 2007 il tarixində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə " Zaqulba" Beynəlxalq Turizm Mərkəzində " Azərbaycanda İnformasiya İqtisadiyyatı: nailiyyətlər, problemlər və perspektivlər " mövzusunda elmi praktik konfrans keçirmişdir.



**10.** Qlobal İqtisadi Araşdırmalar Mərkəzi ilə ABŞ səfirliyi arasında 30 avqust 2007 –ci il tarixdə Qrant sazişi imzalamışdır . Qrant müqaviləsinə görə QİAM **" ÜTT-nin səmərələri haqqında özəl sektorun məlumatlılığının artırılması"** layihəsini həyata keçirmişdir. Layihən şərçivəsində respublikanın müxtəlif reqionlarında- Bakı, Lənkəran, Quba, Şəki. Əli Bayramlı və Gəncədə sahibkarlar və iş adamları üçün "ÜTT-yə üzvlüyün özəl sektor üşün səmərələri" mövzusunda seminarlar təşkil edilmiş və İctimai televiziyada (İTV) veriliş keçirilmişdir. Bunlarla bərabər regionlarda "Sahibkarliğın Azərbaycanın ÜTT-yə üzvlyünə münasibəti" adlı araşdırma aparılmış və hesabat hazırlanmışdır.



# XİDMƏTLƏR

QİAM aşağıdakı xidmətləri göstərir:

- Araşdırma xidmətləri
- Təşkilatı xidmətlər
- Məsləhət xidmətləri

## Araşdırma xidmətləri

Mərkəzimizin ən əsas xidmətlərindən biri sosial-iqtisadi araşdırma və sorğuların aparılmasıdır. Təşkilat aşağıdakı istiqamətlərdə araşdırmalar aparırı:

1. Kiçik və orta sahibkarlığın problemləri
2. İnvestisiya mühiti
3. Qeyri-neft sektorunun inkişafı
4. Ticarət və Azərbaycanın beynəlxalq ticarət münasibətləri
5. Regionların sosial-iqtisadi inkişafı və s.

Eyni zamanda təşkilat Kənd Təsərrüfatı,Büdcə, İnvestisiya, Turizm və bir sıra digər sahələrdə sorğular həyata keçirir.

Yuxarıdakı fəaliyyətləri icrası üçün Mərkəz müvafiq iqtisadi ixtisasa malik 30-yaxın ekspertə malikdir. Bu ekspertlər BMK,DB,UNICEF və Alman Texniki Əməkdaşliq Təşkilatı kimi təşkilatların sorğularında iştirak etmişdir.

## Təşkilati xidmətlər

### Konfranslar

Konfrnasların təşkili xidməti bir sıra fəaliyyətləri əhatə edir.QİAM konfrnasların təşkilində qonaqların dəvət edilməsi,yerləşdirilməsi və yola salınması,qida təchizatı, konfrans materiallarının hazırlanması və çapı, sinxron tərcümə, iştirakçılar üçün Bakı şəhərinin görməli yerləri üzrə turların təşkili kimi bir sıra digər xidmətləri göstərir.



### Seminarlar

QİAM sosial-iqtisadi mövzularda müxtəlif seminarlar təşkil edir. Bu növ tədbirlərdə təşkilatımız iştirakçıların və digər qonaqların dəvət edilməsi və yerləşdirilməsi, qida təchizatı, sinxron tərcümə, seminar materiallarının paylanılması , texniki vasitələrlə təminat kimi bir sıra xidmətlərin göstərilməsinə cavabdehdir.



### Treninqlər

Müasir iqtisadi şəraitdə müxtəlif iqtisadi ixtisaslar üzrə treyninqə olan təlabatı nəzərə alaraq Mərkəz ictimaiyyət və biznes strukturlarının nümayəndələri üçün aşağıdakı treninqləri təşkil edir:

1. Mühasibat Uçotu və Beynəlxalq Mühasibat uçotu Standartları
2. Beynəlxalq Keyfiyyət Standartları (ISO 9001:2000 və Daxili Audit, Ümumi Keyfiyyət Menecmenti (TQM))



## Məsləhət xidmətləri

Mərkəzin xidmətləri ticarət, standartlar və mühasibat uçotu sistemlərini əhatə edir:



1. ISO 9001, 14001 standartları üzrə məsləhət xidmətləri
2. İxrac əməliyyatları üzrə məsləhət xidmətləri.
3. Beynəlxalq Mühasibat Uçotu Sistemlərinə keçidlə bağlı xidmətlər
4. Azərbaycanın ÜTT-yə üzvlüyünün şirkətlərin fəaliyyətinə təsirləri ilə bağlı xidmətlər

## Göstərilən xidmətlər

**“Azərbaycanda büdcə prosesinin şəffaflığı"** mövzusunda araşdırma

2006-cı və 2008-ci illərin aprel ayında QİAM Beynəlxalq Büdcə Təşkilatının vəsaiti hesabına **“Azərbaycanda büdcə prosesinin şəffaflığı"** mövzusunda araşdırma həyata keçirmişdir. Layihə çərçivəsində respublikada büdcənin hazırlanması, müzakirəsi və qəbul ediləsi , icrası zamanı şəffaflığın nə dərəcədə təmin edilməsi və büdcənin monitorinqi prosesi araşdıraraq Beynəlxalq Büdcə Təşkilatının tələblərinə hansı dərəcədə cavab verməsi müəyyənləşdirilmişdir .

**“Dövlətin ictimai xidmətlərinin səmərəliliyi” üzrə Seminar**



Dünya bankı ilə seminar. 6 fevral 2006-cı ildə QIAM Dünya bankı ilə birgə **“Dövlətin ictimai xidmətlərinin səmərəliliyi”** mövzusunda seminar keçirmişdir. Seminar təşkilatın daxili hesabına maliyyələşdirilmişdir.

**Beynəlxalq Mühasibat Uçotu Standartları üzrə Treninq**



QİAM Beynəlxalq Mühasibat Uçotu Standartları üzrə 2006-ci ilin Sentyabrından başlayaraq Noyabr ayına kimi Barmek ASC, Bestcomp, Standart İnsurance, Barama Prodaction və Cənub Tikinti Neft Şirkətlərinin bir qrup mühasibləri üçün iki aylıq ödənişli kurs təşkil etmişdir.

**Yanğın təhlükəsizliyi, ekologiya, sanitariya və standartlaşma sahəsində dövlət yoxlamalarının hüquqi bazası araşdırılması üzrə Məsləhət xidməti.**

Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzi(CİPE)-nin qrantı əsasında Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu tərəfindən həyata keçirilən layihədə məsləhət xidməti aparılmışdır. Layihənin QİAM-ın məsləhət xidməti ilə bağlı hissəsi 30.06.08 – 30.07.08 tarixləri arasında olmuşdur.

Məsləhət xidməti çərçivəsində sahibkarlıq subyektlərinin yanğın təhlükəsizliyi, ekologiya, sanitariya və standartlaşma sahələri üzrə müvafiq dövlət orqanları tərəfindən yoxlanılmasının hüquqi bazası araşdırılmış və həmin tədbirlərin həyata keçirilməsində səmərəliliyin artırılması məqsədilə təkliflər verilmişdir.

**Ünvan:** M.Muxtarov küç., 194 ,

ADİU, III korpus,  otaq 3. , İndeks Az 1065

**Telefon/Faks:** (+994 12) 436 86 74,

(+994 50) 531 03 81

**E-mail:** office@qiam.org

www.qiam.org